# ƏBƏDİYYƏT QALASISAN İSMAYIL

## Türk dünyasının böyük oğlu, qüdrətli qələm sahibi İsmayıl Şıxlının anadan olmasının 100 illiyi münasibətilə...

Qoşqar Əhmədliyə mən də ayrı-ayrı qəzet səhifələrində çoxlu məqalələr, şeirlər və nəzmlə "Qoşqar" dramını yazıb nəşr elətdirmişəm. İnşallah Qoşqar Əhmədlinin növbəti ad günlərində də öz ürək sözlərimi yenə söyləyəcəyəm.

İndisə İsmayıl Şıxlı haqqında söhbətimi davam etdirəm. İsmayıl Şıxlının boynumda haqqı-sayı böyük olduğundan onun 100 illik yubileyi ərəfəsində daha ətraflı danışmaq fikrindəyəm. İlk dəfə İsmayıl Şıxlı ilə Yazıçılar birliyində onun iş otağında görüşəndə (onda İsmayıl Şıxlı Yazıçılar Bilirinin birinci katibi idi). O, məndən bir neçə şeirimi söyləməyi xahiş etdi. Əvvəlcə "Yadda saxlar ellər məni" gəraylımı dedim:

Qalxdım uca dağ başına,
Salamladı güllər məni.
Düşdüm leysan yağışına,
İtirmə di ellər məni.

Nə ipəyi bezə verdim,
Nə dərdimi üzə verdim.
Ömrü günü sözə verdim,
İtirmədi ellər məni.

Hava çalmaz saz qırığı,
İşə keçməz söz sırığı.
Fəzailəm haqq aşığı,
Yadda saxlar ellər məni.

Gülümsəyib dedi: "Niyə haqq aşığı olmaq istəyirsən, xalq şairi olmaq istəmirsən?" Cavab verdim: "Haqq aşığı olmayandan, xalq şairi çıxmaz". "Eləsə bir gəraylı da söylə" - dedi. Atama həsr et-diyim "Yenə sığar ocağına" gəraylımı söylədim:

Ata məni endirəmməz,
Hökümdar da ayağına.
Ömrüm vaxtsız söndürəmməz,
Min dərd gəlsə, ha yaxına.

Oğlum gələr hala, dəmə,
At nigili, batma qəmə.
Bircə nolar yazma-demə,
Ürəyimin varağına...

Şair ollam sözüm qalsa,
Həkim ollam can sağalsa.
Fəzailin Şah da olsa,
Yenə sığar ocağına
Sənin ata qucağına.

İsmayıl Şıxlı heyranlıqla dilləndi: "Deyə bilərsənmi ata ocağına həsr etdiyim bu gəraylının sonuncu bəndində bir misra niyə artıq oldu?" Cavab verdim: "Çünki atamı dünyada hamıdan çox istəyirəm. Ona görə də bir misranı artıq demişəm". Eləsə atana həsr etdiyin ən gözəl bildiyin şeirini söylə" - dedi. Baş üstə deyib "Atam gəldi, atam getdi" şeirimi söy-lə-dim:

Atam gəldi, uzaq yolu,
Gözü dolu, könlü dolu.
Kəndimizdə körpələnmiş,
Bakımızda səpələnmiş.
Dörd baladan olsun halı,
Atam gəldi, gətirdi əynində
Dörd il əvvəlki paltarı,
Atam gəldi, gətirdi ürəyində,
Ata həsrəti, ata intizarı...
Atam gəldi, bu gəlişdən
Duydum nələr, duydum nələr...
Bunu yazsam çatan deyil,
qələm-dəftər,
Yazmasam da ürəyimi ağrı dələr...
Bu gəlişdən mən oxudum -
Ağıl sərvət, zəhmət sərvət.
Bu gəlişdən mən oxudum,
harınlara sonsuz nifrət.
Çox şükür ki, atam mənim -
xəsis deyil, xəbis deyil.
Müftəxorlar məclisinə -
doğma deyil, əziz deyil.
Atam deyər:
- Pulu səpən insan qolu sınmalıdır,
Atam üçün -
Bir qəpik də gərəklidir, mənalıdır.
Atam gəldi,
Bircə gecə qala bildi,



Bunu bizim gen Bakıda,
Qəhqəhəli şən Bakıda,
Bir dar daxma,
Bir yatacaq,
Bir də dördcə bala bildi.
Atam getdi -
Amma bilmirəm niyə, nədən?
Qabarlı əllər tikən,
Adam deyə haray çəkən.
Üzü bər-bəzəkli,
İçi tər-təzəkli.
Saraylara söymədi getdi,
Şükürlər olsun Allaha!!!-
Alçaqların qapısını döymədi getdi.

"Atam gəldi, atam getdi" seirimi dinləyib İsmayıl Şıxlı dilləndi: - "Oğlum daim belə şerilər yaz səninlə ömürlük dost olum. Bu şeirin yazılma tarixini danış. İsmayıl Şıxlıya dedim: "Atam I qrup hərbi əlildir. Onun beş qızı, bir oğlu var. Mən Tibb İnstitutunda, üç bacımsa universitetdə oxuyurlar. Mən Tibb İnstitutunun yataqxanasında qalırdım. Üç bacım da mən qaldığım yataqxanaya yaxın kirayə tapmışdım. Tibb İnstitutunun yataqxanası təmirə bağlandığından mən də bacılarımla birgə kirayədə qalmalı oldum. Atam Bakıya yanımıza gəldiyi gün mən təcili yardımda növbədə olduğundan evə gec gəldim. Atamla görüşüb, öpüşüb, yatmağa yer olmadığından o gecəni sübhə qədər şirin-şirin söhbət etdik. Sabahısı atamı kəndə yola salandan sonra xəyalımdan təcili yardım stansiyasında tibb qardaşı işlədiyim vaxt ərzində Mərkəzi Komitə katiblərinin, birinci katiblərin, nazirlərin, məhkəmələrin, prokurorların və bu zümrədən ağır xəstələnənlərin çağırışına gedəndə onların hansı mənzillərdə, hansı millətdən olanlarla necə şəraitdə yaşadıqlarını xatırladım... Bir sözlə, ağaların tənəz-zülünü və gədaların tərəqqisini təhlil edərək bu şeirimi qələmə aldım. İsmayıl Şıxlı çox dərin fikrə gedərək dedi: "Deməli, sənin atan da əsilzadə nəslindəndir". "Bəli, həm atam, həm də anam əsilzadə nəslindəndir" - deyə cavab verdim. Beləliklə, mən İsmayıl Şıxlıyla ömürlük dost oldum. Elə həmin günün sabahından da Yazıçılar Birliyinin Şüvəlan Yazıçılar Evində İsmayıl Şıxlının adına olan otağı onun göstərişiylə mənə verdilər. İsmayıl Şıxlı tez-tez yaradıcılıq evinə gələrdi. Orada şairlərlə, yazıçılarla, tənqidçilərlə görüşlər keçirərdi. O, görüşlərdə mən də yazdığım təzə şeirləri oxuyardım. Bəyənilən şeirlərim "Ulduz", "Azərbaycan" jurnallarında, "Ədəbiyyat və incəsənət" qəzetində və rus dilinə tərcümə edilərək "Molodlyoj Azerbaydjan" və digər qəzetlərdə dərc edilərdi. Bir sözlə İsmayıl Şıxlının YB-nə rəhbərlik etdiyi dövr mənim yaradıcılığımın qızıl dövrüdür

İsmayıl Şıxlıyla ilk dəfə görüşəndən sonra o, Yazıçılar Birliyinin ədəbiyyat fondunun sədri Adil Hacıyevi çağırıb dedi: "İndi gedib Fəzailə ədəbiyyat fondunun birinci mükafatını verərsən. Sonra da hər ayda 150 manat pul kömək edərsən". "Ehtiyacım yoxdur" - deyə dilləndim. İsmayıl Şıxlı gülümsəyərək dedi: "Şairin könlü səxavətli olduğu kimi, əli də səxavətli olmalıdır". Adil müəllim məni öz ötağına apardı və mənə 400 manat pul verərək dedi: "Bu pul İsmayıl Şıxlının təzə nəşr olunan kitabının qonorarının pulundandır. Yəni, bu pulun ədəbiyyat fondunun pulana dəxli yoxdur. Əslində bu pula İsmayıl Şıxlı təqaüdü deyilsə daha doğrudur. Yəqin ki, hər ay da sənə verdiyi 150 manat pul da İsmayıl Şıxlı təqaüdünə aid olan puldan olacaqdır". (Mən o vaxt yazıçılar birliyinin üzvü deyildim. Həm də ədəbiyyat aləmində indiki qədər öz bəhrəmi verməmişdim. İşə baxın ki, dövlətimizin müstəqil olmasından 28 il keçməsinə baxmayaraq, Yazıçılar Birli-yindən zəhmət haqqı olaraq, bir qara qəpik də almamışam, daha üzləşdiyim haq-sızlıqları da yada salmaq istəmirəm). Doğrusu, İsmayıl Şıxlının alicənablığına heyran qaldım. Axı mən o vaxt heç Yazıçılar Birliyinin üzvü deyildim, Azərbaycan müstəqil dövlət olmadığı üçün Yazıçılar Birliyinə üzv olmaq fikrim də yox idi.

Bir dəfə İsmayıl Şıxlı Şüvəlan Yaradıcılıq Evində mən qaldığım otağa (yəni öz otağına) gəldi. Mən mütaliə etdiyim kitabları nəzərdən keçirərək dil-ləndi: "Əhsən zəndinə, Şüvəlan Yara-dıcılıq Evinin kitabxanasındakı oxunmalı kitabları düz seçib götürmüsən. Fikir verirəm ki, mütaliə etdiyin kitabların çoxu Avropa, ABŞ, Türkiyə, Yunanıstan, Yaponiya və digər ölkələrin yazıçılarının, şairlərinin kitablarıdır. Dostum, əslində insan beyni arı şanına bənzəyir, qədim yunan, hind, çin, yapon ədəbiyyatından tutmuş, Avropa, Amerika ədəbiyyatına qədər oxunulası bütün yaxşı kitabları imkanın daxilində oxuyub, öyrən və ordakı gözəl fikirləri beyninin şanələrinə doldur ki, onlar boş qalmasın, misraların daha salğarlı, fikirlərin daha dolğun və sanballı olsun. Görürsənmi, Şüvəlan Yaradıcılıq Evində nə qədər bədbəxt şair, yazıçı və tənqidçi var. Gündüz axşama qədər yazıb-yaratmaq əvəzinə, yeyib-içib laqqırtı vurub, boşboğazlıq eləyirlər. Nəbadə onlarla bir məclisdə oturasan. Elə bilmə ki, onlar istedadsız qələm sahibləridir. Mən onların çoxunu gənclik illərindən yaxşı tanıyıram. Onların içərisində vaxtilə çox istedadlı yazıçılar, şairlər, tənqidçilər olub. Onlar o vaxt həm abırlı, həm də həyalı adamlar idilər. Amma yaradıcılıq prosesində beyinlərinin şanələri boş olduqlarından və qaraya ağ deməyi də bacarmadıqlarından içkiyə qurşandılar, sonra ağıllarına gələn ağ yalanları, fantaziyaları uyduraraq camaata sırımağa çalışdılar. Amma oxucu məhəbbəti qazana bilmədilər. Qazandıqları içki düşkünlüyü, əyyaşlıq və zavallı görkəm oldu. Biləsən Şüvəlan Yaradıcılıq Evində otağı olmayıb həyətdəki köşənlikdə yatan şairlər necə istedadlı idilər. Onlardan ibrət götür". İsmayıl Şıxlını dinləyib dedim: " O dediklərinin içərisində ən çox da məni filan şairin (adını məlum səbəbdən işlətməyi məqsədəuyğun bilmirəm) taleyi daha çox incidir. Özü də Bakı xanlarının nəslindəndir. Şeriləri və nəğmələri dillər əzbəridir. Əfsus ki, içkiyə qurşandığından arvad-uşağı ondan üz döndərib. Bir dəfə onunla söhbət edəndə dedim: "Gəl səni müalicə elətdirim, sonra da hötmətli ağsaqqallara evinizə gedib səni ailənlə barışdırım". Osa mənə dedi: "Yaxşı olar ki, mənə ya 3 manat pul ver, ya da bir araq al. Mənim dərdim paralanmış Vətən dərdidir. Bu dərdə nə dava-dərman kömək edər, nə də məni öz arvad-uşağım anlaya bilər". İsmayıl Şıxlı bu söhbətimizin sonunda dərindən ah çəkərək mənə dedi: "Dostum, atalar gözəl deyib, "Yay ki, oxundan çıxdı, o heç vaxt geri qayıtmaz". Səncə o şairin elə ağlar günə düşməyinin səbəbi Vətən dərdidirmi? Axı, o, içkiyə qurşanaraq öz şəxsiyyətini, mənliyini itirməməli idi. Odur ki, öz həkimlik sənətinin qədrini bil, can sağlığını qoru, heç vaxt da nəfsinə qul olma və şöhrətə uyma, Vətənini də, millətini də ağılla sev. Anla ki, öz qədrini bilmə-yənlərin Vətəninə və millətinə heç bir faydası olmaz. Sənin yaradıcılıq evində qalmağının sənə ən böyük xeyirlərindən biri də elə qələm sahiblərindən ibrət götürməyindir".

İsmayıl Şıxlıya sağlığında və haqqın dərgahına qovuşandan sonra çox şeirlər həsr etmişəm və ayrı-ayrı poemalarımda, dramlarımda İsmayıl Şıxlı haqqında məhəbbətlə və ətraflı söhbət açmışam. İsmayıl Şıxlıya sağlığında həsr etdiyim "Xudafərin məramlıdır vuruşun!!!" qoşmamın birinci, ikinci, üçüncü bəndində ona belə müraciət edirəm:

Sən yurdumun əzəməti, vüqarı,
Əziz-xələf balasısan İsmayıl!!!
Yaşat ölmü, öldür azar-bezarı,
Əbədiyyət qalasısan İsmayıl!!!

Böyük şeir çəkdi məni sınağa,
Fəqət düşdüm iblis dolu yığnağa.
Bir dağsan ki, söykənmişəm bu dağa,
Neylər bizə qopsa tufan İsmayıl?!!

Bağman olan bağça salar, bağ salar,
Haqq nahaqqın çəp gözünə ağ salar,
Məddahları of dəmərəm boğsalar,
İnsan kəsə canım qurban İsmayıl!!

"Səninlə yüz yaşda durum üz-üzə" şeirimin üçüncü, dörüncü bəndindəsə belə deyirəm:

Yamanca tələsdim, yamanca burda,
Qara torpaq belə cəllad olanmaz.
Şəkərin, şərbətin dinc dursun orda,
Əsəb də ömrümü məndən alınmaz.

Şöhrət gəzən kişi deyil, xanımdır,
Şöhrəti daş-qaş tək sanar möcüzə.
Səni məğrur görmək toy-bayramımdır!
Səninlə 100 yaşda durum üz-üzə!

Bu şeirlərimin hər ikisin doğma Azərbaycanımızı dünyalar qədər sevən, onu bütöv görmək istəyən sevimli yazıçımız İsmayıl Şıxlıya can sağlığı və ən azı 100 il ömür arzulamışam. Amma təəssüf ki, bu arzularımı görmək İsmayıl Şıxlıya nəsib olmadı. Mən də bütöv Azərbaycan əsgiylə təşnə-təşnə yazıb-yaratsam da, hələ ki, bu istiqamətdə heç bir əməli nəticələr görmürəm...

İsmayıl müəllim şəkər xəstəliyindən əziyyət çəkərdi. Tez-tez əsəbi hadisələrlə üzləşdiyindən qanında şəkərin miqdarı həddindən artıq çox olardı. O şəkər xəstəliyi haqqında belə deyərdi: "Bu şəkər xəstəliyi çox namərd xəstəlikdir. Mənim bu xəstəliyimin əsas səbəbi yaşadığım dövrün stresləridir.. Hərgah ruslar Azərbaycanı parçalamasaydı, millətimiz də kölə olmasaydı, mənə də şəkər xəstəliyi əziyyət verməzdi. Kölə xalqın xoşbəxt şairi, yazıçısı, xoşbəxt ziyalısı olmaz" - deyərdi İsmayıl Şıxlı. Onunla evində, xəstəxanada hər dəfə görüşəndə o söhbəti elə qurardı ki, mən təzə yazdığım şeirləri həvəslə ona oxuya bilim. O mənim hər şeirimi əzbər deməyimi bəyənərək: - "Allah bu vergini hər şairə vermir" - deyərdi. İsmayıl Şıxlının digər mənsəb sahiblərindən ən əsas fərqi onun bir oğuz Türkü kimi şeiri çox uca tutması idi. O, bu haqda belə deyərdi: - "Əlbəttə, şairin hər şeiri şeir deyil, amma şairin şeiri şeirdirsə, o, şairdən uca bir kimsə yoxdur.

*(Davamı var)*

**FƏZAİL İSMAYIL BÖYÜKKİŞİ**